

*Dəmir Çeşməli*

## Bizim dağlar

Güneydən başlayır yolu,
Qüzeydə qurtarır qolu.
Sağımda dayanıb solu,
O dağlardı, bizim dağlar.

Qara düşüb qaralanıb,
Yardan olub yaralanıb.
Xeyli vaxtdı aralanıb,
O dağlardı, bizim dağlar.

Döşündə buz həsrətim var,
Qəlbində söz həsrətim var,
Dəmirəm, öz həsrətim var,
O dağlardı, bizim dağlar.

## Kərəmində ol

Höccələyib, höccəsində qurtardım,
Yarpağında, ləçəyində qurtardım,
Ağardıb, ağ birçəyində qurtardım,
Kərəminə şükür, kərəmində ol.

Vaxtımızın özü vaxtınnan düşər,
Baxtımızın baxtı, baxtınnan düşər,
Taxtaminən şahdı, taxtınnandüşər,
Kərəminə şükür, kərəmində ol.

İkigələnqoşalaşıbgələrlər,
Yerdən-göyə çulğalaşıbgələrlər,
Şirinləşib, qucaqlaşıbgələrlər,
Kərəminə şükür, kərəmində ol.

Haqqyoluvar,təpərində  kərəmol,
Öndə dayan, sipərində kərəmol,
Kərəmeylə, kərəmində kərəmol,
Kərəminə şükür, kərəmində ol.

## Ürəyim

Atlanıb tərkimi tutur,
Boşumu, bərkimi tutur,
Lütlənib kürkümü tutur,
Çulunnan çıxır ürəyim.

Ünlənib ünə tələsir,
Dumana, çənə tələsir,
Toxtayıb, yenə tələsir,
Yolunnan çıxır ürəyim.

Qana dönüb özqanında,
Varlığı qalıbqınında.
Sağ tərəfioyanında,
Solunnan çıxır ürəyim.

## Mənim

Yarıdan  yarıtdı, tamam,-yarıdan,
Yönünə yetdim, əl tutdu yaradan.
Mənim Tanrı payım vardı, Tanrıdan,
Alnımda olanı pozublar mənim.

Boylanıb boyuma baxan olmadı,
Bulaşıb yaşıma axan olmadı,
Həvəsim eşqimə yaxın olmadı,
Olub, qalanımı yozublar mənim.

Libasımı ətək-ətək biçiblər,
Addımımı  qarış-qarış ölçüblər.
Özünnən keçməyib, mənnən keçiblər,
Ayağmın altını qazıblar mənim.

Min hərif seçmişəm, həriflənmişəm,
Söz üstə yatmışam, sehirlənmişəm.
Misram qanad açıb, möhürlənmişəm,
Yazımı azdırıb, yazıblar mənim.

## Deməmişdim

Axarında durulmuşdum,
Baxarında yorulmuşdum.
Bəyazına vurulmuşdum,
Qarasına deməmişdim.

Axtarmışdım,tapışmışdım.
Neçəsinə tapınmışdım.
Birisinə yapışmışdım,
Orasına deməmişdim.

Tikintini tikdirmişdim,
Söküntünü söktürmüşdüm.
Hara gəldi tökdürmüşdüm,
Harasına deməmişdim.

Yıxılmışdım, əzilmişdim,
Sıxılmışdım, üzülmüşdüm.
İpək təki nəzilmişdim,
Yarasına deməmişdim.

Gedənin yeri qalmışdı,
Önlənib geri qalmışdı,
Gədənin biri qalmışdı,
Sorasına deməmişdim.

## Sevəndə səni

Dünyaya gəlmiş kimiydim,
Dərdini bilmiş kimiydim,
O vaxtdan ölmüş kimiydim,
Sevindim, sevəndə səni.

Ölçüdə, biçimdə sevdim,
Seçildim, seçimdə sevdim,
Çölümdə, içimdə sevdim,
Sevindim, sevəndə səni.

Yol üstə uzanıb qaldım,
Xəyaldan-xəyala daldım.
Sevəndən sevincmi aldım?
Sevindim, sevəndə səni.

Dediyim sözündə yandı,
Alovum közündə yandı,
Özüm də özündə yandı,
Sevindim, sevəndə səni.

Bu da bir həyatdı, dedim,
Köksümdə boy atdı, dedim,
Füzuli Boyatdı, dedim,
Sevindim, sevəndə səni.

## İnsan

Göyərir, bağına sarı,
Bozuna, ağına sarı,
Ötürür dağına sarı,
Çəni tutub gedir insan.

Sönmüşünü közü bilir,
Astarını üzü bilir,
Öz səmtini özü bilir,
Yönü tutub gedir insan.

Təklənir,çəmi var ki,
Uçulmuşun himi var ki,
Arxasında kimi var ki,
Önü tutub gedir insan.



2 fevral.-S.3.